# Elan: Daşkənddə Beynəlxalq Multimodal Nəqliyyat Forumu

Türk Dövlətləri Təşkilatının Katibliyi məmnunluqla bildirir ki, 12 noyabr 2025-ci il tarixində Daşkənd şəhərində Beynəlxalq Multimodal Nəqliyyat Forumu keçiriləcəkdir. Tədbirin təşkilatçıları Özbəkistan Respublikası Nəqliyyat Nazirliyi, Logistika Mərkəzləri və Yükdaşıyıcılar Alyansı, həmçinin Türk Dövlətləri Təşkilatıdır.

Forumun məqsədi multimodal nəqliyyat marşrutlarının inkişafını təşviq etmək üçün səmərəli müzakirələr, bilik və təcrübə mübadiləsi, eləcə də birgə təşəbbüslər üçün platforma təmin etməkdir.

Bu yüksək səviyyəli tədbir multimodal nəqliyyat dəhlizlərinin inkişafı, logistika sahəsində rəqəmsal həllərin inteqrasiyası, tranzit potensialının artırılması və nəqliyyat sektorunda "yaşıl" texnologiyaların təşviqi üzrə əhatəli müzakirələrə həsr olunacaqdır.

Proqram çərçivəsində aşağıdakı istiqamətlər üzrə tematik panel müzakirələri keçiriləcəkdir:

- Sərhədlərarası logistika və gömrük tənzimləməsi;
- Rəqəmsallaşma və platforma texnologiyaları;
- İnvestisiya və infrastruktur layihələri;
- Ekoloji cəhətdən dayanıqlı yanaşmalar və "yaşıl logistika".

Türk dünyasından aparıcı nəqliyyat və logistika şirkətləri, biznes qurumları və müvafiq maraqlı tərəfləri bu tədbirin iştirakçısı olmağa dəvət edirik.

Sizi yeni imkanları araşdırmaq, dəyərli bilik və təcrübə bölüşmək və nəqliyyatın gələcəyinə töhfə vermək imkanından yararlanmağa çağırırıq.

Tarix: **12 noyabr 2025-ci il**
Məkan: ***JW Marriott Hotel* Daşkənd**
Ünvan: **Batir Zakirov küçəsi 5/7, bina 7, Daşkənd**
Qeydiyyat:
☞ **Kayıt Olun:**
https://docs.google.com/forms/d/e/1FAIpQLSckNYp1zMkDlaOIctPZQ84hrL8Xn2HgZDpN8AlovDpQjfyoWQ/viewform?usp=dialog
Qeydiyyat üçün son tarix: **25 oktyabr 2025-ci il.**
Forumun proqramı və konsepsiyası ilə bağlı ətraflı məlumat üçün aşağıdakı sənədlərə baxa bilərsiniz:
https://drive.google.com/drive/folders/1GQLJYYSUPIzWZ-dxp-7Q_CqbLX5FDzc-?usp=sharing